# Qəhrəmanlarımızı unutmayaq

***Qarabağ cənnət məkan, gözəl guşə, Azərbaycanın qəlbi, yaralı yeri...***

***Tarix boyu Qarabağla həm qürur duymuşuq,həm də hər kəsin qəlbində dərin bir iz qoymuşdur Qarabağ.Mən düşünürəm ki, elə bir azərbaycanlı yoxdur ki,qəlbində Qarabağa, vətənə sevgi olmasın. Bu yolda biz minlərlə oğul və qızlarımız şəhid vermişik. Əlbəttə, bu şəhidlərimizin bəzilərini çox yaxşı tanıyırıq, bəzi şəhilərimizin isə adı təəssüf ki, bizə məlum olmur. Bu gün sizə şəhid qardaşımız Zülfi Kərimovdan danışmaq istəyirəm.***




Şəhid qardaşımız, baş leytenant Kərimov Zülfi Habil oğlu 25 sentyabr 1967-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur. 1992-ci ildə Zülfi Kərimov Qarabağ uğrunda baş verən döyüşlərə könüllü qatılmışdır.Laçın rayonunun qorunması və Daşaltı kimi mühüm əməliyyatlarda böyük cəsarətlə, yaxından iştirak etmişdir.

Zülfi Kərimov 1993-cü ilin mart ayında Kəlbəcər uğrunda gedən döyüşlərdə əlindən yaralanır və müalicə almaq üçün döyüş bölgəsini tərk etməli olur. Sonralar yenidən döyüş bölgəsinə qayıdır və Briqadanın kəşfiyyat bölüyündə xidmətinə davam edir.

Kərimov döyüş ərəfəsində bir neçə dəfə yaralanmağına baxmayaraq bu onun savaş əzmini sarsıtmamış və sağaldıqdan sonra yenidən eyni əzmkarlıqla xidmətini davam etdirmişdir.

***Zülfi 1993-cü ilin avqust ayında kəşfiyyat bölüyü ilə hərbi əməliyyatda olduğu zaman düşmənin amansız hücüm cəhdi səbəbiylə yenidən yaralanır. Hərbi hospitalda müalicə aldıqdan sonra, yenidən döyüş komandanlığının əmiri ilə 5-ci Bərdə taborunda xidmətini mətanətlə davam etdirir.1993-cü ilin 29 dekabrından, 1994 -cü ilin 16 fevralına qədər davam edən Kəlbəcər uğrunda gedən döyüşlərdə artıq bölük komandiri olaraq igidlik və hünər göstərmişdir.***

Kəlbəcər əməliyyatlarında göstərdiyi şücaətə görəKərimov "Kiçik leytenant" hərbi rütbəsinə layiq görülmüşdür. Onun bir bölük komandiri kimi Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndinin alınmasında göstərdiyi rəşadət və qəhrəmanlıq döyüşçü qardaşlarımızın yadaşında silinməz iz qoymuşdur. Ağdam rayonun Şorabad və Nəmirli kəndləri uğrunda döyüşlərdə yaxından iştirak etmişdir. Bununla da nə qədər igid, torpağa, vətənə sevgisinin necə sonsuz olduğunu sübut etmişdir.

Komandanlığın əmiri ilə Zülfi Kərimovun 5-ci tabordan 6-cı tabora keçməsinə baxmayaraq, dostluğumuz hər zaman davam etmişdir.6-cı tabora keçdikdən sonra Tərtər rayonunun Qapanlı kəndinin qorunması onun bölüyünün öhtəliyində idi.Həmin qoruduğu bölgədə hazırladığı tunelə "Zülfi yolu" adı verilmişdir.Zülfi döyüşdüyü müddətdə bir əsgər kimi əmrləri səhvsiz və mükəm-




məl yerinə yetirmişdir.Bölük komandiri kimi vətənpərvər,igid,tələbkar olmuş və eyni zamanda qardaşımızın gördüyü bütün işlər vətənə,millətə,xalqa,insanlığa xidmət idi.18 aprel 1996-cı ildə kəşfiyyat xarakterli əməliyyat zamanı minaya düşərək qəhrəmancasına şəhid olmuşdur.Allah rəhmət eləsin!

Zülfi qardaşımız dostlarının,cəbhədaşlarının,yaxınlarının və onu tanıyanların qəlbində daima yaşayacaq. Zülfi kimi igidlər Azərbaycan tarixində unudulmaz iz qoymuşdur.2011-ci il 25 iyun Prezidentin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. Allah Zülfi və onun kimi minlərlə şəhid olan qardaşımızın ən böyük mükafatını vermişdir.Zəfəri bizə bəxş edən igid əsgərlərimizi salamlayır, qəhrəman şəhidlərimizin ruhu qarşısında baş əyirik. Şəhadətləri mübarək olsun!

Zülfi qadaşımız insanlığa bir nümunədir. Zülfi qardaşımız Azərbaycan uğrunda, vətən, torpaq uğrunda canından heç düşünmədən keçən minlərcə əsgərimizdən biridir. Biz Qarabağın, öz ana torpaqlarımızın necə çətinliklə, neçə anaları, uşaqları gözü yaşlı qoyaraq alındığını unutmamalıyıq! Şəhidlər sadəcə bizim gələcəyə ümidlə addımlamağımız üçün deyil, eyni zamanda keçmişimizi, törədilən soyqırımları unutmamağımız üçün şəhid oldular. Türk şairi Mehmet Akif Ersoyun da dediyi kimi:

**"Bastığın yerlərə "torpaq" deyərək keçmə, tanı**
**Düşün altında minlərcə kəfənsiz yatanı.**
**Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı**
**Vermə, dünyaları alsan da, bu cənnət vətəni".**

Məkanınız cənnət, ruhunuz şad olsun Azərbaycan Əsgəri!

**Cəbhədaşı**
**Qurban Məmmədov**

Türküstan.- 2024.- 1-7 oktyabr, №37.- S.5.